

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

22 oktyabr 2020-ci il
Cümə axşamı

№ 38 (3503)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


## Düşmən məğlubiyyətini etiraf edir



Baş verənlər fonunda Ermənistan silahlı qüvvələrinin rəhbərliyi nəhayət ordunun mövqelərdən geri çəkilməyə məcbur olduğunu ifadə etdi. Həmçinin Paşinyan bir daha dünya ermənilərinə müraciət edərək onlara döyüşlərdə iştirak etmək üçün çağırış etdi. Bunun ardınca son bir il ərzində ordudan tərxis olunmuşlar da hərbi komissarlıqlara çağırıldılar. Proseslərin davamlı hal alması düşmən düşərgədəki vəziyyətin acınacaqlı olduğunu açıq-aydın göstərir.

Bir neçə gün əvvəl isə qondarma rejimin rəhbərliyi daha gülünc bir addım atmağa məcbur oldu. Aralarında ahılların da olduğu birinci Qarabağ müharibəsinin iştirakçıları da döyüşlərə məcburi şəkildə cəlb olundu. Əlbəttə ki, ön xəttə peşəkar Ordumuza qarşı bu cür yaşlı döyüşçülərin vuruşaraq hansısa uğur qazanmaq imkanı sıfıra bərabərdir.

Bundan əlavə, düşmən ordunun düşərgəsindən yayılan videogörüntülərdən də aydın şəkildə müşahidə olunur ki, erməni əsgərləri böyük sarsıntı içindədirlər və məcburi şəkildə döyüşürlər. Bir məqama da diqqət yetirmək yerinə düşər. Azərbaycan Ordusu tərəfindən azad edilən düşmən mövqelərindən yayılan görüntülərdə erməni əsgərlərinin mövqelərdən qaçmaması üçün onların ayaqlarının zəncirləndiyi faktı da artıq hər kəsə məlumdur. Yəni, erməni əsgəri də Azərbaycan torpağında ölmək istəmir.

Oktyabrın 17-də isə düşmən yenə Gəncə şəhərini raket atəşinə tutdu. Dinc sakinlər arasında ölən və yaralananlar oldu. Artıq ağlını itirmiş Paşinyan hökumətinin bu cinayətinin cavabı isə daha ağır oldu. Azərbaycan Prezidenti həmin gün səhər saatlarında xalqa müraciət etdi, Ordumuzun əldə etdiyi uğurlardan danışdı. Füzuli şəhərinin və rayonun bir sıra kəndlərinin düşmən işğalından azad edildiyini elan etdi. Əlbəttə ki, bu, düşmənə ən layiqli cavab idi. Ali Baş Komandanın da qeyd etdiyi kimi, bizim məqsədimiz işğal altında olan torpaqlarımızın azad edilməsidir və Ordumuz düşmənə layiqli cavabı döyüş meydanında verir.

### Bütün ehtiyatları tükənən Ermənistan ordusu ağ bayraq qaldırmaq ərəfəsindədir

Müdafiə Nazirliyinin bu gün ərzində yaydığı videolardan da görünür ki, düşmənin son hərbi resursları və canlı qüvvəsi artıq darmadağın edilib.

Bütün bunlar göstərir ki, rezervləri, imkanları tükənən Ermənistan ordusu artıq ağ bayraq qaldırmaq ərəfəsindədir.

### *Paşinyanın reallıqla barışmaqdan başqa çıxış yolu qalmayıb*

"Qarabağ Ermənistandır və nöqtə", "Şuşada yallı getmək", "Şuşada qondarma rejimin başçısına "andiçmə" mərasimi keçirmək" və s. Paşinyanın cılız təfəkkürünün məhsulu olan bütün bu təxribatların cavabı bu gün döyüş meydanında verilir.

İqtisadi imkanları onsuz da məhdud olan Ermənistan döyüşlərdən sonra daha ciddi böhran vəziyyətinə düşüb. Ölkədəki ağır iqtisadi durum, sosial problemlər, döyüşlərdəki uğursuzluqlar Ermənistanda siyasi böhranı daha da dərinləşdirib. Sosial şəbəkələrdə yayılan məlumatlarda isə artıq Ermənistanda valideynlərin hərbi komissarlıqların qarşısında toplaşaraq övladlarının döyüşlərə getməsinə etiraz etdikləri bildirilir. Valideynlər müxtəlif yollarla övladlarının döyüşlərdən yayındırmağa çalışırlar. Döyüş meydanında mövqeləri atıb qaçan erməni əsgərləri ölmək istəmədiklərini, hərbi təchizatın olmadığını deyirlər.

Küçə yürüşləri ilə hakimiyyətə gələn Paşinyan artıq siyasi rəqiblərinin açıq-aşkar təzyiqləri ilə üz-üzədir. Onlar Paşinyanı düzgün siyasət yürütməməkdə ittiham edirlər. Ermənistan hakimiyyəti belə məqamda yenidən beynəlxalq aləmdən kömək istəməyə başlayıb. Paşinyanın səsinin eşidilmədiyini görən bu ölkənin keçmiş prezidentləri də artıq yaranmış böhrandan çıxış yolu üçün beynəlxalq təşkilatlara müraciət ünvanlayırlar.

Belə ağır vəziyyətdə Ermənistan rəhbərliyinin məğlubiyyətini etiraf edib danışıqlar prosesinə qatılmaqdan başqa seçimi yoxdur. Azərbaycan Prezidentinin danışıqların bərpası üçün irəli sürdüyü şərtlər də artıq hər kəsə məlumdur. Ermənistan baş nazirinin siyasi iradə göstərib bu şərtləri qəbul edəcəyi təqdirdə Azərbaycan döyüş meydanında qazandığı nailiyyətləri danışıqlar masasında davam etdirəcək.

Artıq düşmən müxtəlif vasitələrlə, ayrı-ayrı vasitəçilərin imkanlarından istifadə etməklə Azərbaycan Prezidenti İlham Əliyevlə təmas qurmağa çalışır. Yəni, Paşinyan Azərbaycanın diktə etdiyi şərtlərlə danışıqları bərpa etmək üçün müraciətlər edir. Ölkəsindəki ağır böhrandan çıxış yolunu işğal altında olan ərazilərimizi boşaltmaqda görür. Bu, həm də Azərbaycan Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sülhə məcburetmə əməliyyatının məntiqi nəticəsidir.

## ORDUMUZ TARİX YAZIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində işğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını açıqlayıb.

Dövlətimizin başçısı aşağıdakı yaşayış məntəqələrinin azad olunduğunu bildirib:

Füzuli rayonu: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

Cəbrayıl rayonu: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.

Xocavənd rayonu: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri. Vəng kəndinə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu: Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

## Birinci vitse-prezidentdən təbrik

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib. Paylaşımda deyilir:

"Füzuli, Cəbrayıl, Xocavənd və Zəngilan rayonlarının bir sıra kəndlərinin və Zəngilan şəhərinin işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edirəm. Yaşasın Azərbaycan xalqı və Azərbaycan Ordusu! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".



## Azərbaycan beynəlxalq qurumlara müraciət edəcək

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə və mülki əhalisinə qarşı hücumları ilə bağlı hər bir fakt Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən sənədləşdirilir, cinayət işləri başlanır, materiallar toplanır.

Bu sözləri oktyabrın 19-da ADA Universitetində diplomatik korpusun nümayəndələri üçün keçirilən brifinqdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, daxili prosedurlar başa çatdıqdan sonra Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrinə və mülki əhaliyə qarşı hüc umlarla bağlı Avropa İnsan Hüquqları Məhkəməsinə və digər aidiyyəti qurumlara müraciətlərin edilməsi nəzərdə tutulub.

## "Əlaqələrin daha da inkişafı xalqlarımızın rifahı naminə regionda sülh və sabitlik işinə xidmət edəcək"

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 15-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri cənab Seyid Abbas Musəvini qəbul edib.**



Qonağı salamlayan nazir yeni təyinat münasibəti ilə onu təbrik edib, ölkəmizdəki diplomatik işində uğurlar arzulayıb, fəaliyyəti müddətində Azərbaycan-İran münasibətlərinin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirib.

General-polkovnik Vilayət Eyvazov iki ölkənin Daxili İşlər nazirlikləri arasında mövcud olan əlaqələrə toxunaraq nazirlər, o cümlədən digər rəhbər vəzifəli şəxslərin başçılıq etdikləri heyətlər səviyyəsində səfərlərin, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin nəinki DİN-lər, həmçinin digər hüquq mühafizə orqanları arasında sıx əlaqələrin mövcudluğundan xəbər verdiyini bildirib.

Tanışlıq xarakterli görüşdə cinayətkarlıqla mübarizə sahəsində iki ölkənin Daxili İşlər nazirliklərinin potensialının geniş olduğu, əlaqələrin daha da inkişafının xalqlarımızın rifahı naminə regionda sülh və sabitlik işinə xidmət edəcəyi fikri ifadə olunub.

Səfir Seyid Abbas Musəvi səmimi qəbula görə nazirə təşəkkür edib, dövlətlərimizin müvafiq strukturları arasında əlaqələrin daha da dərinləşdirilməsindən məmnunluğunu, bu yöndə səylərini əsirgəməyəcəyini vurğulayıb.

# PREZİDENTƏ YAZIRLAR

**Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısını uğurla alması, düşmənə sarsıdıcı zərbələr endirməklə cəbhədə əldə etdiyi qələbələr xalqımız tərəfindən böyük sevinc və ruh yüksəkliyi ilə qarşılanır. Vətəndaşlar bu nailiyyətlərə görə Prezident, Ali Baş Komandan İlham Əliyevə çoxsaylı təbrik və minnətdarlıq məktubları ünvanlayırlar.**

**Məktublarda Azərbaycan Ordusuna dəstək ifadə olunur.**

**Gəncə şəhər sakini Gülşən Məmmədzadə:** "Möhtərəm cənab Prezident, Sizin qətiyyətiniz və şücaətiniz bizi həm fərəhləndirir, həm qürurlandırır. Hər bir sadə azərbaycanlı qazandığınız bütün uğurlara sevinir, Sizinlə fəxr edir. Biz kəlbəcərlilər inanırıq ki, tez bir zamanda Kəlbəcərlə bağlı şad xəbər verəcəksiniz. Buna əminik və böyük ümidlə o dəqiqələri gözləyirik. Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirik. Şəhidlərimizə ulu tanrıdan rəhmət, yaralılarımıza şəfa diləyirik. Xalqımız şad xəbərlər gözləyir. Təşəkkür edirik. Qarabağ Azərbaycandır!".

**Bakı şəhər sakini Əlikram Qəniyev:** "Hörmətli Prezidentim, mən Sizin apardığınız daxili və xarici siyasətlə həmişə fəxr etmişəm. Bu gün də mənfur düşmənlərə verdiyiniz dərs bu sətirləri yazmağıma səbəb oldu. Mən və tabeliyimdə olan "İnsan hüquqlarının müdafiəsi və ekologiyanın qorunması" İctimai Birliyinin Sabunçu rayon mərkəzinin kollektivi Sizi bu uğurlar və qələbə münasibətilə təbrik edirik. Sizə, xalqımıza, millətimizə Allahdan cansağlığı arzulayıram. Hər an Sizin əmrinizlə düşmənlə döyüşməyə hazırıq, cənab Ali Baş Komandan. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

**Qazax sakini Məmməd Omarov:** "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, şairlər, tarixi şəxsiyyətlər və hərbçilər Vətəni Qazax elinin ürəyində Sizin xüsusi yeriniz var. Siz Vaqifin, Əliağa Şıxlinskinin, Fərrux ağa Qayıbovun, Səməd Vurğunun ruhunu şad etdiniz. XXI əsrin birinci yarısında dünya prezidentləri sırasında Allahın say-seçmə bəndəsi kimi tarixə düşdünüz. Həsrətlə gözü yollarda qalan Qarabağ torpağını amansız, hiyləgər, faşist ermənilərin işğalından birdəfəlik azad etməyə yol tapdınız, müzəffər Ordumuzu qələbələrə ruhlandırdınız. Bu haqq yolunda Sizə və əsgərlərimizə yeni-yeni uğurlar arzulayıram. Allah Sizi və Ordumuzu qorusun!".

**Füzuli sakini Ceyhun Məmmədov:** "Hörmətli cənab Prezident, faşist erməni dövlətinin qədim Gəncə şəhərinə növbəti hücumu bizi sarsıda bilməz. Bütün canımız, malımız, övladımız bu Vətənə qurban olsun. Əzəli torpağımız olan Qarabağın azad olunması üçün düzgün hərbi və siyasi mübarizənizi bundan sonra da həyata keçirəcəyinizə inanır və bu ədalətli mübarizədə Sizin arxanızda polad yumruq kimi dayandığımızı bildiririk. Tanrı Sizi və əsgərlərimizi qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

**Məktəbli Roman Kazımov:** "Hörmətli cənab Prezidentimiz, biz Sizi çox sevirik. Sizinlə fəxr edirəm. Bütün uşaqlar Sizi çox sevir. Mənim nənəm Qərbi Azərbaycandan qaçqındır. Siz düşmənləri "iti qovan kimi" qovduqca biz sevinirik. Qarabağı işğaldan azad edəcəyinizə hamımız inanırıq. Mən də böyüyəndə cəsur əsgər olacağam".

**Astara rayon sakini Ağamirzə Əkbərov:** "Möhtərəm cənab Prezident, bugünlərdə bizə yaşatdığınız hədsiz sevinc və qürur hisslərinə görə Sizə və şanlı Ordumuza minnətdarıq. Cənab Prezident, Azərbaycanda hamı Sizin ətrafınızda sıx birləşib. Bu gün milli həmrəylikdən kənarda qalanı nə xalq, nə də tarix bağışlamayacaq. Astaranın bütün sakinləri adından bir nəfər kimi Sizi dəstəklədiyimizi, əmrlərinizə hazır olduğumuzu bildirirəm".

**Binəqədi rayonundan Babayeva Xuraman Hüseyn qızı, Məmmədova Esmira Əlişirin qızı, İsayeva Maya İkram qızı, Nağıyev Namiq Fərhad oğlu hisslərini belə ifadə edirlər:**

"Hörmətli cənab Prezident! Biz Sizinlə, ordumuzun şanlı qələbə əzmi ilə qürur duyuruq. İşğalçı düşmənə qarşı apardığınız düzgün siyasəti dəstəkləyir, Sizin arxanızda olduğumuzu bildiririk. Sizin rəhbərliyinizlə ordumuz uğurlu əməliyyatlarla xalqımızı sevindirdi. Bir neçə kəndin azad olunması xəbəri yeni qələbələrin carçısıdır. Sizin kimi Prezidentlə fəxr edirik. Qələbə bizimlədir.

**Yevlax şəhərindən Osman Xəlilov bildirib ki, Vətənimizin uğrunda döyüşməyə hər an hazırdır:**

"Möhtərəm Prezident, cənab Ali Baş Komandan! Mən inanıram ki, işğal altındakı bütün torpaqlarımız yaxın vaxtlarda Sizin rəhbərliyinizlə azad ediləcək və biz məcburi köçkünlər öz doğma yurdlarımıza qayıdacağıq. Allah Sizi və əsgərlərimizi qorusun".

# Polislər yaralı əsgərlərimizi ziyarət etdilər




**Sentyabrın 27-də torpaqlarımızı işğaldan azad etmək üçün mərd oğullarımız silaha sarılıb Vətən uğrunda döyüşlərə atıldılar. Onlar düşmənə sübut etdilər ki, Azərbaycan xalqı heç vaxt zalımla və zülümlə barışmayacaq, o öz ərazi bütövlüyü uğrunda qanı, canı bahasına olsa belə doğma torpaqlarını azad edəcək. Bu döyüşlərdə şəhidlik zirvəsinə ucalanlar da oldu, güllə yarası alanlar da.**



Oktyabrın 6-da torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə yaralanan igid oğullarımızdan biri də ürəyi Vətən eşqi ilə döyünən 30 yaşlı Elvin Qurbanovdur. Xaçmaz rayonunun Aşağı Zeyid kəndində dünyaya gələn Elvin "N" saylı hərbi hissədə xidmət edir. Əsgər yoldaşları kimi o da çox çətin və mühim tapşırıqların öhdəsindən gəlib, mərdliklə vuruşub, kənd və qəsəbələrin işğaldan azad olunmasında iştirak edib. Fəxrimiz və qürurumuz olan əsgərimiz hazırda xəstəxanada müalicə alır.

Vətən uğrunda yaralanan mərd oğulların ziyarətçiləri də az deyil. Bu günlərdə Xaçmaz rayon Polis Şöbəsinin şəxsi heyəti rayon sakinləri ilə birgə ona baş çəkiblər. Elvin kimi igid oğullarımızla qürur duyduğunu deyən **şöbə rəisi, polis polkovniki Həmid Həsənov** çox yaxın bir zamanda üç rəngli bayrağımızın işğaldan azad olunmuş torpaqlarımızda dalğalanacağına inamını ifadə edib.



RPŞ-nin əməkdaşları Elvinin rayonun Aşağı Zeyid kəndinə yaşayan ailəsi ilə də görüşüblər. Övladlarının mərdliklə Vətən uğrunda döyüşündən fəxrlə danışan ataya belə vətənpərvər övlad böyütdükləri üçün təşəkkür edən polislərimiz, onunla fəxr etdiklərini bildiriblər.

Düşmənlə döyüşdə yaralanan digər bir əsgər isə Əlimusa Mehdiyevdir. 2019-cu ilin oktyabr ayında hərbi xidmətə yollanan igidimiz Vətən müharibəsində iştirak etdiyi üçün qürur hissi keçirir. O da döyüşlərdə qolundan yaralanıb. Yarasının onu qorxutmadığını, sağalıb tezliklə cəbhəyə, yoldaşlarının sırasına qayıdacağı günü həsrətlə gözləyir.

***Nizam Həmidov,***
***polis baş leytenantı***

# ÖN CƏBHƏNİN GÜCÜ ARXA CƏBHƏDİR




## Otuz illik həsrətin sona çatmasında daxili işlər orqanları əməkdaşlarının da payı var








Fövqəlada vəziyyətin elan olunduğu ilk gündən arxa cəbhədə sabitliyin, ictimai asayişin qorunması və hər hansı təxribatın baş verməməsi üçün hüquq mühafizə orqanları tərəfindən təhlükəsizlik tədbirləri gücləndirilib.

Komendant saatının tətbiq olunduğu şəhər və rayonlarda, o cümlədən Bakıda qurulan postlarda polis əməkdaşları Daxili Qoşunların hərbi qulluqçuları ilə birgə saat 21:00-dan ertəsi gün 06:00-dək xidmət aparırlar. Bu müddət ərzində piyadaların, sürücü və sərnişinlərin sənədləri yoxlanılır, avtomobillərin yük yerinə baxış keçirilir. Hərəkətinə müvafiq icazəsi olmayan şəxslər barədə qanunvericiliyin tələblərinə uyğun olaraq tədbir görülür.

***Zeyni Hüseynov,***
***polis leytenantı***

# Bizi güvənc yeri bilirlər...

Torpaqlarımızın azadlığı uğrunda mücadiləmizin-Vətən müharibəsinin 26-cı günü arxada qalıb. Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri işğaldan azad edilib, Suqovuşanımıza qovuşmuşuq. Hadrutda Azərbaycan bayrağı dalğalanır. Tarix yazdığımız bu günlərdə gözümüz, könlümüz cəbhədədir. Hər kəsin dilində bir nida var: hər şey cəbhə üçün. Belə bir dönəmdə daxili işlər orqanlarının əməkdaşları da xidmətlərini ayıq-sayıq davam etdirirlər.

Bu gün ölkə vətəndaşları polisin gərgin əməyini, fədakar xidmətini çox yüksək qiymətləndirirlər. Daxili İşlər Nazirliyinə ünvanlanan təşəkkür dolu məktubların hər bir cümləsi böyük bir minnətdarlıq hissi ilə yazılıb. Polis-vətəndaş münasibətləri etibarın və inamın üzərində qurulub. Çünki hər hansı bir çətinliyə düşən vətəndaşın ilk olaraq köməyinə polis yetişirsə, peşəkarlıq və insanpərvərlik nümayiş etdirirsə, bu əlbəttə ki, gözdən, könüldən uzaq qalmır. Bunu hamı görür və dəyərləndirir.

"Bu gün ön cəbhədə əsgərlərimizin ürəklə döyüşməyinin, inamla irəliləməyinin əsas səbəbi arxa cəbhədən arxayın olmaqlarıdır. İnsanlarımızda olan ruh yüksəkliyi, qələbə əzmi bizi günbəgün böyük Qələbəyə yaxınlaşdırır. Bu çətin və məsuliyyətli günlərdə Azərbaycan Polisi də tarix yazır. Xain düşmənin Gəncəni raketlərlə vurmasından sonra orada köməksiz qalan insanlara polisin cani-dildən köməyini görəndə gözlərim yaşardı. Asayişi qorumaqla bərabər, dağıntılar altında qalanların çıxarılmasında polis səfərbər olmuşdu. Bu həm də qürurverici idi. Deməli, biz bir millət kimi xoş gündə də, dar gündə də toparlanmağı bacarırıq". **Bu fikirlər Gəncə şəhər sakini, 75 yaşlı fermer Akif Rzayevin DİN-ə ünvanladığı təşəkkür məktubundandır.**

**Bakı şəhər sakini Könül Əmirova** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda şikayətinə tez bir zamanda baxılaraq hüquqlarının bərpa olunmasında və ona dəyən ziyanın ödənilməsində göstərdikləri köməkliyə görə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

**Paytaxt sakini Qulam Qurbanov** oğurlanmış avtomobilinin çox qısa zamanda tapılmasında, **Abşeron rayon sakini Elman Qarayev** isə ona dəymiş maddi ziyanın ödətdirilməsində, həmçinin borclu olan şəxsin Binəqədi rayon İcra və probasiya şöbəsinə təhvil verilməsində göstərdikləri köməyə görə Binəqədi RPİ 5-ci Polis Bölməsinin əməkdaşlarına minnətdarlığını bildirir.

**Xahiş, tələb, arzu-bütün müraciətlərə həssaslıqla yanaşılır. Vətəndaş-polis münasibətlərinin təməlində isə inam və etibar durur**

**Lənkəran rayon sakini II qrup əlil Mirkərim Qafarov** ictimai sabitliyin təminində, cinayətkarlıqla mübarizədə və pandemiya dönəmində qaydalara əməl olunmasında, o cümlədən vətəndaşların maariflənməsində ŞRPŞ-nin əməkdaşlarının rolunu xüsusi vurğulayır.

**Bakı şəhər sakini Emil Rəsulov** pozulmuş hüquqlarının bərpa olunmasında göstərdikləri köməkliyə görə Gədəbəy rayon Polis Şöbəsinin əməkdaşlarına minnətdarlığını yazır.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# Düşmənin əzəli peşəsi və son çarəsi

**Ötən yazılarımda da qeyd etmişdim: "Atəşkəs yoxdur, atəşə davam var...". "Atəşkəs" demiş, bu, qanı və canı ilə ermənilərə bağlı olanların canfəşanlığı ilə guya bizə qurulmuş "humanitar" tələ idi. Bunu fürsət bilən düşmən, sən demə, itirdikləri mövqeləri bizdən geri alacaqmış. Niyyətlərini vaxtında anladıq və müzəffər Azərbaycan Ordusu onlara həddini bildirdi, yerini göstərdi.**



Bundan sonra faşizm ideologiyasına xidmət edən ermənilər vəhşiliklərinin növbəti mərhələsinə – əzəli peşələrinə, namərdliyə keçdilər. Son çarə kimi bunu görə bildilər, başqa çarələri də yoxdur zatən. Döyüş cəbhəsinə heç bir aidiyyəti olmayan qədim Gəncəni ballistik raketlərlə vurdular.

Doğrudanmı, bu mənfur qonşularımızda insanlıq adına daha heç bir şey qalmayıb? Doğrudanmı, düşünürdülər ki, bu qeyri-insani hərəkətləri ilə bizi panikaya salacaqlar, əzmimizi, iradəmizi qıracaqlar?

Əsla! Cavad xanın davamçıları bu təcavüzlərin, namərdliklərin qarşısında sınan deyil. İndi bu xalq daha mətin, daha əzmkardır...

Bu sətirləri yazarkən Ali Baş Komandanımız elan edir: "Müzəffər ordumuz Zəngilan şəhərini işğaldan azad edib... Zəngilan bizimdir... Qarabağ Azərbaycandır!"

Gəncənin qisasını aldıq, özü də döyüş meydanında. Və elə cənab Prezidentin təbirincə desək, doğrudan da biz xoşbəxt nəsilik ki, Qələbə sevincini yaşayırıq. Hələ Şuşa sevinci, Laçın sevinci, hələ Böyük Qələbəmizin sevinci irəlidədir. Bu, yurd sevgisi, Vətən sevgisidir. Ölməz Hüseyn Cavid deyirdi ki, "Bu Vətən bir sevimli validədir". Onu sevən, qoruyan və uğrunda canını verməyə hazır olan oğullar var.

*– Yurdumuzu çiğnəyən*
*Saygısız hər kim olsa.*
*İnan ki, çoq sürmədən,*
*Diz çökəcək qarşıda.*
*Bizdə dəmir biləklər,*
*Çəlik qollar az deyil.*
*Saldırıcı, hünərvər*
*Mərd oğullar az deyil.*

Cavid əfəndi həm də hər bir namuslu şəxsi öz Vətənini sevməyə, onu qorumağa çağırırdı:

*– Mayeyi-iftixarı ər kişinin*
*Vətən uğrunda bəzli-himmətdir.*
*Lafə baqmazlar, iştə hər kişinin*
*İşi ayinəsində müsbətdir.*
*Qeyrət istər bizi, can nisar edəlim,*
*Mədəniyyətlə iftixar edəlim.*

Necə də gözəl səsləşir bu misralar bugünümüzlə.

*Arkadaş, yoldaş, ey vətəndaş, oyan!*
*Yatma artıq, yetər... Dəyişdi zaman;*
*... Çox əzildin, yetər, ər oğlu, ər ol!*
*Çırpınıb çareyi-xilas ara, bul!*

Bu, bizim XIX əsrin sonu – XX əsrin birinci yarısında yaşayıb-yaratmış Hüseyn Cavidimiz. Böyük şairimiz qısa ömründə (sürgündə keçən ömründə) Vətəni sevməyə, onu qorumağa çağırıb, şair-müəllim kimi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük əhəmiyyət verib. Mənfur qonşularımızın bədnam Aqambekyanları və Balayanları isə körpələri belə qanına qəltan etməkdən zövq alaraq öz xalqını millətlər arasında nifaq salmağa, düşmənçilik toxumu səpməyə, ədavət yaymağa səsləyib, faşist mahiyyəti təlqin edib.

Nəticəyə baxın: bir tərəfdə qüdrətli Azərbaycan, digər tərəfdə isə kölə vəziyyətinə düşən Ermənistan...

Həqiqət hər zaman zəfər çalır. Çünki onun mahiyyətində Haqq var, Haqq isə əbədidir.

*Rahib Qarayev,*
*Şəxsi Heyətlə İş İdarəsinin rəisi,*
*polis polkovniki*

# Çəkirdi ki, izi qala...



**"Diqqət, çəkirəm". Bu sözləri sevincli anlarımızı tarixin yaddaşına köçürmək üçün foto çəkdirdiyimiz zaman tez-tez eşidirik. Hərdən darıxanda, köhnələri yada salanda fotoalbomumuzu vərəqləyib o xatirələri təzələyir, yenidən yaşayırıq. Bəzən də şəkillər həyanımız olur. Zaman ötür, yaşlanırıq. Dəyişməyən isə zamanı özündə donduran, keçmişimizi, sevincimizi, təbəssümümüzü əks etdirən şəkillərdir...**

Fotoşəkildə arzu olunan əhval-ruhiyyəni yaratmaq, duyğuları oyatmaq fotoqrafda xüsusi istedad tələb edir. Və sözün əsl mənasında işinin peşəkarı idi Üzeyir Muradov. Onu daxili işlər orqanlarında hamı tanıyırdı...

Canından can verdiyi fotoları daha keyfiyyətli çəkmək üçün bəzən aparatın "tətiyini" sıxanda nəfəsini dərərdi. "Şəkil danışmalıdır, şəkil tarixin parçasıdır, biz vasitəçiyik.",-deyərdi.

Hamıdan tez işə gələrdi. Eynəyini gözünə taxar, gündəlik qəzetlərə göz gəzdirərdi. Hərdən də əlini-əlinin üstünə qoyar, başını azca aşağı əyib mürgü vurardı. Söhbətindən, sözündən doymaq olmazdı. Baməzə zarafatları da öz yerində. Çəkilişlər zamanı başına gələn maraqlı hadisələri, ezamiyyətlərdəki sərgüzəştləri yorulmadan danışar, sonra da üzünü bizə tutub deyərdi ki, bunları yazın, bir gün mən həyatda olmayanda oxuyub xatırlayın. Ona "neçə ildir şəkil çəkirsiniz?" deyəndə gülümsəyərdi: "Mən dünyaya gələndən şəkil çəkirəm". Doğurdan da, Üzeyir kişini fotoaparatsız təsəvvür etmək olmurdu. O, həm də "çörək ağacı"nı göz bəbəyi kimi qoruyurdu...

Ömrünün yarım əsrdən çoxunu daxili işlər orqanlarına həsr etmişdi. Bu gün o aramızda yoxdur. Danışan şəkilləri ilə "Mübariz keşikdə" qəzetinin səhifələrinə rəng qatan və daha da maraqlı edən Üzeyir Muradov ömrünün 84 yaşında əbədiyyətə qovuşdu.

**Allah rəhmət eləsin!**

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# Bu siyahıda Şuşa da olacaq. Az qalıb...

**Azərbaycan Silahlı Qüvvələri sentyabrın 27-dən genişmiqyaslı əks-hücuma keçərək Ermənistanın işğal altında saxladığı bir çox yaşayış məntəqələrimizi, strateji yüksəklikləri, Murovdağ zirvəsini, o cümlədən Cəbrayıl, Füzuli və Zəngilan şəhərlərini azad edib.**

1. Qaraxanbəyli kəndi (Füzuli rayonu, 27.09.2020)
2. Qərvənd kəndi (Füzuli rayonu, 27.09.2020)
3. Kənd Horadiz (Füzuli rayonu, 27.09.2020)
4. Yuxarı Əbdürrəhmanlı kəndi (Füzuli rayonu, 27.09.2020)
5. Böyük Mərcanlı kəndi (Cəbrayıl rayonu, 27.09.2020)
6. Nüzgar kəndi (Cəbrayıl rayonu, 27.09.2020)
7. Suqovuşan kəndi (Tərtər rayonu, 03.10.2020)
8. Talış kəndi (Tərtər rayonu, 03.10.2020)
9. Mehdili kəndi (Cəbrayıl rayonu, 03.10.2020)
10. Çaxırlı kəndi (Cəbrayıl rayonu, 03.10.2020)
11. Aşağı Maralyan kəndi (Cəbrayıl rayonu, 03.10.2020)
12. Şaybay kəndi (Cəbrayıl rayonu, 03.10.2020)
13. Quycaq kəndi (Cəbrayıl rayonu, 03.10.2020)
14. Aşağı Əbdürrəhmanlı kəndi (Füzuli rayonu, 03.10.2020)
15. Cəbrayıl şəhəri (Cəbrayıl rayon mərkəzi, 04.10.2020)
16. Karxulu kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
17. Şükürbəyli kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
18. Çərəkən kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
19. Daşkəsən kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
20. Horovlu kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
21. Mahmudlu kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
22. Cəfərabad kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
23. Yuxarı Maralyan kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
24. Decal kəndi (Cəbrayıl rayonu, 04.10.2020)
25. Şıxəli Ağalı kəndi (Cəbrayıl rayonu, 05.10.2020)
26. Sarıcalı kəndi (Cəbrayıl rayonu, 05.10.2020)
27. Məzrə kəndi (Cəbrayıl rayonu, 05.10.2020)
28. Hadrut qəsəbəsi (Xocavənd rayonu, 09.10.2020)
29. Çaylı kəndi (Tərtər rayonu, 09.10.2020)
30. Yuxarı Güzdək kəndi (Füzuli rayonu, 09.10.2020)



31. Qışlaq kəndi (Füzuli rayonu, 09.10.2020)
32. Görəzilli kəndi (Füzuli rayonu, 09.10.2020)
33. Qaracallı kəndi (Cəbrayıl rayonu, 09.10.2020)
34. Süleymanlı kəndi (Cəbrayıl rayonu, 09.10.2020)
35. Əfəndilər kəndi (Cəbrayıl rayonu, 09.10.2020)
36. Sur kəndi (Xocavənd rayonu, 09.10.2020)
37. Qaradağlı kəndi (Füzuli rayonu, 14.10.2020)
38. Xatunbulaq kəndi (Füzuli rayonu, 14.10.2020)
39. Qarakollu kəndi (Füzuli rayonu, 14.10.2020)
40. Bulutan kəndi (Xocavənd rayonu, 14.10.2020)
41. Məlikcanlı kəndi (Xocavənd rayonu, 14.10.2020)
42. Kəmərtük kəndi (Xocavənd rayonu, 14.10.2020)
43. Təkə kəndi (Xocavənd rayonu, 14.10.2020)
44. Tağaser kəndi (Xocavənd rayonu, 14.10.2020)
45. Arış kəndi (Füzuli rayonu, 15.10.2020)
46. Doşulu kəndi (Cəbrayıl rayonu, 15.10.2020)
47. Edişə kəndi (Xocavənd rayonu, 15.10.2020)
48. Düdükçü kəndi (Xocavənd rayonu, 15.10.2020)
49. Edilli kəndi (Xocavənd rayonu, 15.10.2020)
50. Çiraquz kəndi (Xocavənd rayonu, 15.10.2020)
51. Xırmancıq kəndi (Xocavənd rayonu, 16.10.2020)
52. Ağbulaq kəndi (Xocavənd rayonu, 16.10.2020)
53. Axullu kəndi (Xocavənd rayonu, 16.10.2020)
54. Füzuli şəhəri (Füzuli rayonu, 17.10.2020)
55. Qoçəhmədli kəndi (Füzuli rayonu, 17.10.2020)
56. Çimən kəndi (Füzuli rayonu, 17.10.2020)
57. Cuvarlı kəndi (Füzuli rayonu, 17.10.2020)
58. Pirəhmədli kəndi (Füzuli rayonu, 17.10.2020)
59. Musabəyli kəndi (Füzuli rayonu, 17.10.2020)
60. İşıqlı kəndi (Füzuli rayonu, 17.10.2020)
61. Dədəli kəndi (Füzuli rayonu, 17.10.2020)
62. Xudafərin körpüsü (Cəbrayıl rayonu, 18.10.2020)
63. Soltanlı (Cəbrayıl rayonu, 19.10.2020)
64. Əmirvarlı (Cəbrayıl rayonu, 19.10.2020)
65. Maşanlı (Cəbrayıl rayonu, 19.10.2020)
66. Həsənli (Cəbrayıl rayonu, 19.10.2020)
67. Göyərçin Veysəlli (Cəbrayıl rayonu, 19.10.2020)
68. Hacılı (Cəbrayıl rayonu, 19.10.2020)
69. Əlikeyxanlı (Cəbrayıl rayonu, 19.10.2020)
70. Niyazqullar (Cəbrayıl rayonu, 19.10.2020)
71. Keçəlməmmədli (Cəbrayıl rayonu, 19.10.2020)
72. Şahvəlli (Cəbrayıl rayonu, 19.10.2020)
73. Hacı İsmayıllı (Cəbrayıl rayonu, 19.10.2020)
74. İşıqlı (Cəbrayıl rayonu, 19.10.2020)
75. Qumlaq (Cəbrayıl rayonu, 19.10.2020)

Bununla yanaşı, Xudafərin körpüsü və bir çox strateji yüksəkliklər işğaldan azad edilib.

**Eşq olsun Azərbaycan Ordusuna!**

**Qarabağ Azərbaycandır!**

# Ölkə üzrə COVID-19-a yoluxma statistikası açıqlanıb



Aparılan statistika göstərir ki, ən yüksək yoluxma Bakı şəhərinin payına düşür - 55,9 faiz.

Abşeronda yoluxma 14,9, Aranda 10,4, Gəncə-Qazaxda 6,5, Lənkəranda 4,1, Quba-Xaçmazda 2,4, Şəki-Zaqatalada 2,3, Dağlıq Şirvanda 1,5, Yuxarı Qarabağda 1,0 faizdir. Naxçıvanda yoluxma 0,09 faiz, ölkə xarici yoluxma isə 1,0 faiz təşkil edir.

# Dünya ölkələri döyüş təcrübəmizi öyrənməkdə maraqlıdır

***Hərbi ekspertlərin, analitiklərin ordumuz haqqında fikirləri və rəyləri qürur doğurur***

"Azərbaycan Ordusu işğal olunmuş torpaqların azad edilməsi üçün apardığı antiterror əməliyyatı zamanı 21-ci əsrdə müharibə aparmağın nümunəsini ortaya qoydu".

Rusiyalı aparıcı hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko belə deyib.

"Əminliklə söyləyə bilərəm ki, döyüş əməliyyatları zamanı müasir silahlardan - pilotsuz təyyarələrdən, döyüş sursatından, yüksək dəqiqliklə hədəfi məhvetmə vasitələrindən bu miqyasda istifadə olunması dünyanın aparıcı ölkələrinin baş qərargahları tərəfindən diqqətlə öyrənilir. Bir ordunun başqa bir ordu ilə döyüşdə bu qədər yüksək dəqiqlikli silahdan istifadə etməsi nümunəsini dünya hələ görməmişdi", - deyə Korotçenko qeyd edib.

Onun sözlərinə görə, hücum dronlarının istifadəsinin miqyası və intensivliyi baxımından bu, dünya tarixində ilkdir: "Nə ABŞ, nə Rusiya, nə İsrail, nə də dünyanın başqa bir ölkəsi belə bir miqyasda dronlardan istifadə etməyib. Bu tip qarşıdurmalarda PUA-lar mübahisəsiz-filansız öz üstünlüyünü sübut etdi. Bura Azərbaycan ordusunun düşmənin hava hücumundan müdafiə qüvvələrini və vasitələrini ləğv etmək, ardınca onun zirehli maşınlarını, yüksək səviyyədə qorunan hədəflərini və canlı qüvvəni sıradan çıxarmaq üçün pilotsuz təyyarələrdən kütləvi istifadəsinə yönəlik taktikası da əlavə edilməlidir".

Hərbi analitikə görə, yüksək dəqiqlikli silahların istifadəsi mülki itkiləri də minimuma endirir. "Bu baxımdan Azərbaycan həm hərbi uğurlar qazandı, həm də Dağlıq Qarabağda yaşayan mülki şəxslərin həyatını qoruyub saxladı. O səbəbə düşünürəm ki, döyüş əməliyyatlarının aparılması taktikası sahəsində bundan sonra ciddi dəyişikliklər olacaq. Şübhəsiz ki, Azərbaycan Ordusunun təcrübəsi ətraflı öyrəniləcək", - deyə o, əlavə edib.

# POLİSDƏN QAÇA BİLMƏDİLƏR

**Uzun zamandır bağına baş çəkməyən Elvin İsmixanov evdə əşyaların olmadığını görəndə məsələnin nə yerdə olduğunu anlayıb. Vaxt itirmədən Sabunçu RPİ 42-ci Polis Bölməsinə müraciət edib.**



Məlumat əsasında əməliyyat-axtarış işlərinə başlayan sahə inspektoru, polis mayoru Polad Fərhadov, baş əməliyyat müvəkkili, polis kapitanı Vüsal Mikayılov və əməliyyat müvəkkili, polis baş leytenantı Tamerlan Baxşəliyev oğurluqda şübhəli bilinən Bakı şəhər sakini Fanq Musayevi saxlayıblar. **Bölmə rəisi, polis polkovnik-leytenantı Azər Məmmədovun** sözlərinə görə, araşdırma zamanı maraqlı faktlar ortaya çıxıb. Müəyyən olunub ki, F.Musayev milliyyətcə gürcüdür. Onun doğum haqqında şəhadətnaməsindən başqa heç bir sənədi və daimi yaşayış yeri yoxdur. Bağa gəlib-gedənin olmadığını görən Fanq oranı gözaltı edib. Evə daxil olaraq 2 min 500 manat dəyərində televizoru, kombi aparatını, su mühərrikini və məişət əşyalarını oğurlayıb. Kombi aparatını atasına, televizoru isə bacısına satıb. Atası və bacısı bunları haradan aldığını sual edəndə guya fəhlə kimi işlədiyi evin sahibinin pul müqabilində ona verdiyini deyib. Digər əşyaları isə "NZS" deyilən yerdə dəyər-dəyməzinə satıb. Ancaq polisin çevikliyi və peşəkarlığı sayəsində yaxasını ələ verib.

Ətrafında aparılmış tədbirlərlə onun daha bir həyətdəki yardımçı təsərrüfatdan su mühərriki, elektrik naqili və təmir-tikinti alətləri oğurlaması da müəyyən edilib.

Təqsirləndirilən şəxs toplanmış materiallar əsasında cinayət məsuliyyətinə cəlb olunub.

*****

**Bölmə əməkdaşları tərəfindən daha bir uğurlu əməliyyat həyata keçirilib**. Nardaran qəsəbəsindəki bir evin həyətindən 100 metr elektrik naqili, təmir-tikinti alətləri, 3 ədəd su nasosu və samovar oğurlayan Dərdayıl Dadaşov "isti izlər"lə saxlanılıb.

İstintaq zamanı bəlli olub ki, D.Dadaşov əldə etdiyi qənimətləri Maştağa qəsəbəsində yerləşən təmir-tikinti və dəmir alqı-satqısı məntəqəsinə satıb. Ancaq "asan pul" qazanmış Dərdayılın kefinə asayiş keşikçiləri soğan doğrayıb...

Ətrafında aparılmış əməliyyat tədbirləri ilə onun Nardaran qəsəbəsindəki digər bir həyətdən inşaat materialları və 50 ev quşu oğurlaması da müəyyən edilib.

Əvvəlcə törətdiyi əməlləri etiraf etməyən Dərdayıl tutarlı dəlil-sübutlar qarşısında aciz qalaraq qanunun kəsdiyi cəzayla razılaşıb.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Baş Narkotiklərlə Mübarizə İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında Lənkəran rayonu ərazisində keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Sütəmurdov kənd sakini M. Bəşirov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 6 qramdan artıq tiryək, "BMW" markalı avtomobilindən isə 645 qram heroin, 234 qramdan artıq tiryək və 2 kiloqram 450 qram marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Qazax RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə şəhər sakini E.Qocayevdən "TT" markalı tapança və 2 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

Daxil olmuş məlumat əsasında **Beyləqan RPŞ**-nin əməkdaşları tərəfindən Hacıqabul-Horadiz yolunda qurulmuş xüsusi postda Gəncə şəhər sakini Z.Həbibovun idarə etdiyi "Mercedes" markalı avtomobil saxlanılmışdır.

Polis əməkdaşları tərəfindən avtomobilə baxış zamanı oradan "Makarov" markalı tapança, 1 ədəd patron darağı, 8 patron, 1 ədəd süngübıçaq və 1 ədəd dəbilqə aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Salyan RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 17-də Bakı şəhər sakini N.Hüseynovun idarə etdiyi "BMW" markalı avtomobil rayon ərazisində saxlanılmışdır. Avtomobilə baxış zamanı qapısından metamfetamin, yük yerindən isə N.Hüseynovun sərnişini Bakı şəhər sakini İ.Quliyevə məxsus 665 qram heroin və 480 qram tiryək aşkar edilərək götürülmüşdür. Davam etdirilən tədbirlərlə N. Hüseynov və İ.Quliyev polis əməkdaşları tərəfindən saxlanılmışlar.

◆◆◆

Narkotik vasitə ilə tutulmuş N.Əhmədovanın ətrafında **Səbail RPİ**-nin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə ona narkotik vasitəni satmış qrupun digər üzvü R.Şexov da müəyyən edilərək saxlanılmışdır. Polis əməkdaşlarının onun Mərdəkan qəsəbəsindəki evində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oradan 6 kiloqramdan artıq marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Göygöl RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 26-da saat 5 radələrində Qızılqaya qəsəbəsində yaşayan F.Əliyevin evinə girərək ona və həyat yoldaşına bıçaqla xəsarət yetirib oradan 600 manat və mobil telefonu quldurluq yolu ilə aparmaqda şübhəli bilinən Gəncə şəhər sakini, əvvəllər məhkum olunmuş A.Səmədov saxlanılmış, daha bir nəfərin isə şəxsiyyəti müəyyən edilmişdir.

Əməliyyat-axtarış tədbirləri davam etdirilir.

◆◆◆

**Cəlilabad RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakinləri Z.Fərəcov, M.Fərziyev, B.Kəliyev, N.Şıxəliyev və T.Zeynalov Lənkəran şəhəri ərazisində saxlanılmışlar. T.Zeynalovun idarə etdiyi "Mercedes" markalı avtomobilə baxış zamanı oradan Z.Fərəcova və M.Fərziyevə məxsus 3 kiloqram 575 qram heroin, 3 kiloqram 135 qram metamfetamin və 1 kiloqram 828 qram marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Ucar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Qazyan kənd sakini, əvvəllər məhkum olunmuş Z.Vahidovun evindən 4,5 kiloqram marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Balakən RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində F.Kərimovanı bıçaqla hədələyərək 1200 manatını quldurluq yolu ilə almaqda şübhəli bilinən M.Yetimov saxlanılmışdır. Ətrafında aparılmış tədbirlərlə onun Cinayət Məcəlləsinin 221-ci (xuliqanlıq) maddəsi ilə axtarışda olması müəyyən edilmişdir.

*Natiq Cavadov*

# "XƏZRİ" sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan"Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il tarixlərə qiymətləri (daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115,00 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

6. Karantin rejimi dövründə 6 yaşdan yuxarı şəxslər COVİD-19 testinin neqativ nəticəsi barədə 2 gün qüvvədə olan arayış təqdim edir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobus gəlir.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 16 sentyabr 2020-ci il - 31 may 2021-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

# Oktyabr ayının 14-dən 20-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 171 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 31 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 116, o cümlədən borclu şəxs qismində axtarışda olan 62 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 107 fakt müəyyən edilmişdir.

# MARAQ DÜNYASI



### EKZOTİK HOTEL

Müasir dövrdə ekzotik yerlərdə qeyri-adi hotellərin tikintisi çox dəbdədir. Meksikada Tekila şəhərinin yaxınlığında 30 çəlləkvarı nömrədən ibarət ekzotik hotelin açılması da turizm həvəskarlarının marağına səbəb olub.

"Matices Hotel de Barricas", yəni "barrel otel" adını daşıyan otel tez bir zamanda ölkəyə gələn turistlərin sevimli istirahət məskəninə çevrilib.

Çəlləklərin hər birində rahat yaşamaq üçün 2 nəfərlik çarpayı, mini bar olan qonaq və vanna otaqları, hətta bəzilərində cakuzi də var. Bundan başqa, bütün nömrələr split-sistem və pulsuz internetlə təchiz edilib.

Maraqlıdır ki, otel tekila içkisi istehsal edən zavodun yaxınlığında yerləşir.

Turistlərə tez-tez meksikalıların məşhur içkilərinin dadına baxmaq üçün ekskursiyalar da təşkil edilir.

### YENİ NÖV MASKA

Yaponiyalı tədqiqatçılar "Fudaku" superkompüterinin təqdim etdiyi məlumatlar əsasında üz üçün koronavirusa yoluxma riskini xeyli azaldan yeni maska hazırlayıblar.

"RIKEN" Tədqiqat İnstitutu artıq üz üçün yeni maskanı ictimaiyyətə təqdim edib. Yeni maskanın "Suntory Liquors" içki şirkəti və "Toppan" poliqrafiya şirkəti ilə birlikdə hazırlandığı qeyd edilir.

Bildirilir ki, üz üçün yeni maska hazırlanarkən ağızdan su damcılarının yayılmasının qarşısını alan bu vasitənin çoxsaylı nümunələri təhlil edilib.

Tədqiqatçıların bildirdiyinə görə, hazırda populyar olan tibbi maskaların əksəriyyəti ağız damcılarının təqribən 30 faizinin yayılmasının qarşısını alır. Yeni maskanın bu göstəricisi isə 70 faizə çatır.

Eyni zamanda, üz üçün yeni maskanın həm eynəkdən, həm də maskadan ibarət olduğu bildirilir. Yemək yeyərkən və su içərkən onu çıxarmağın çox rahat olduğu da qeyd edilir.

### ÜZƏN "MAVİ TISBAĞA"



Yeni zelandiyalı gənc ailə öz əlləri ilə mavi tısbağa ("Blue Turtle") adlandırdıqları kompakt üzən ev tikiblər.

Bununla da onlar mənzil problemlərini həll ediblər. Çünki yaşadıqları Oklend şəhərində əmlak və torpaq sahəsi çox baha olduğundan mənzil almaq gənc ailələr üçün real deyil.

Eni 4,6 metr, uzunluğu isə 11,5 metr olan 2 mərtəbəli "mavi tısbağa"da yaşamaq üçün hər şərait yaradılıb. Orijinal layihə əsasında tikilən evin hər metrindən rasional şəkildə istifadə edilib. Birinci mərtəbədə yerləşən yataq və vanna otaqları, mətbəxdən başqa qonaq otağı da nəzərdə tutulub.

*Ruhiyyə Əliyeva*

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik